# Atmosferi qorumaq üçün daha mükəmməl addımlar atılmalıdır

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) kimi qlobal tədbirin Bakıda keçirilməsi ilə bağlı qərarın qəbul edilməsi bir daha onu təsdiq edir ki, artıq Azərbaycan beynəlxalq aləmdə daha yüksək nüfuza malik olan dövlətlərin sırasında yer alır.**







Ölkəmiz yeni uğurlara imza atdıqca daha çox diqqət mərkəzindədir və daha çox dövlətlər onun artan nüfuzunu təsdiq edir. Məhz bu uğurların nəticəsində Azərbaycan dünya dövlətlərinin əksəriyyəti tərəfindən geniş dəstəklənir, ciddi təqdir olunur. Artıq birmənalı şəkildə hamı əmindir ki, COP29 yaddaqalan və uğurlu beynəlxalq tədbirlərdən biri olacaq. COP29-un başlanacağı gün yaxınlaşdıqca iştirakçı dövlətlər bu tədbirə daha məsuliyyətlə hazırlaşır, gündəliyə daxil olunacaq məsələləri ətraflı müzakirə edirlər.

Bu tədbirin şüarı "Yaşıl dünya naminə həmrəy olaq!"dır. Mahiyyət etibarı ilə belə şüar bütün ölkələri bir-birinə bağlayacaq, onların arasında mövcud olan sədləri mümkün qədər sürətlə aradan qaldırmağa imkan yaradacaq.

Tədbirin başqa bir üstünlüyü də ondan ibarətdir ki, çoxsaylı dövlətlərin Azərbaycana gəlişi sülhün və həmrəyliyin güclənməsinə təkan verəcək. Bu da öz növbəsində Azərbaycanla Ermənistan arasında sülh danışıqlarının irəliləməsinə müəyyən qədər müsbət təsir edəcək. Bir sıra politoloqlar və siyasətçilər belə qənaətə gəlirlər ki, bu tədbirin özü sülh müqaviləsinin bağlanmasını qaçılmaz edir.

Tədbirin başlamasına hələ beş ay qalsa da, artıq bütün dünyanın gözü indidən Bakıdadır. Hamı diqqətlə burada keçirilən tədbirləri izləyir, onların Azərbaycan və dünya üçün nə dərəcədə əhəmiyyətli olmasını təyin etməyə çalışır. Bu baxımdan Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi - "Caspian Oil&Gas" və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisi - "Caspian Power" də xüsusi əhəmiyyət kəsb etdi. Beləliklə, bu gün paytaxtımızda cərəyan edən hadisələr dünyanın diqqət mərkəzindədir. Hamı Azərbaycanda baş verən siyasi-iqtisadi proseslərlə ciddi maraqlanır. Deməkolar ki, hər həftə tədbirdə iştirak edəcək dövlətlərin nümayəndələri Bakıya gəlir, eləcə də COP29-un azərbaycanlı təmsilçiləri qarşılıqlı olaraq xarici dövlətlərə səfərlər edirlər. Belə qarşılıqlı səfərlər ölkələr arasında əməkdaşlığın genişləndirilməsi üçün ciddi zəmin yaradır. "Yaşıl dünya" üçün birləşmək, "yaşıl iqtisadiyyat"ı inkişaf etdirmək kimi şüarlar bir daha dünyanın eyni tipli problemlərlə məşğul olduğunu təsdiq edir.

Bütün dünya həmçinin görür ki, Azərbaycan alternativ enerji mənbələrinə keçid etməkdə iradəli addımlar atır. Dəyişim göz qabağındadır, bu sahədə əldə olunan uğurlarda dünyanın aparıcı şirkətlərinin də payı var. Eyni zamanda Azərbaycan "yaşıl enerji" ilə bağlı dünya bazarında da öz yerini tutmağa çalışır.

Ona görə də COP29 platforması Azərbaycanın "yaşıl enerji" sahəsindəki iradəsinin potensialını gücləndirəcək və ölkəmzin qarşısında yeni imkanlar açılacaq. . Bunu BMT kimi nəhəng bir qurum da belə təsdiq edir: "Azərbaycanın COP29-a evsahibliyi etməsi ölkə üçün böyük uğurdur. BMT COP29-un sədrliyinə geniş miqyasda dəstək verir".

Ölkə səviyyəsində isə BMT komandası Azərbaycanda iqlim fəaliyyətlərini mobilizə etmək üçün bütün maraqlı tərəflərlə işləyir. Buna misal olaraq, BMT-nin Azərbaycan nümayəndəliyi tərəfdaşlarla birlikdə iqlim dəyişikliyi və ədalətli keçidlə bağlı ölkəboyu dialoq və fəaliyyətə təkan vermək üçün "29 iqlim müzakirəsi: COP29-a gedən yol" adlı təşəbbüs həyata keçirib.

Təkcə dövlət başçıları deyil, dünya ictimaiyyəti, qabaqcıl ölkələrin QHT rəhbərləri gündəlik fəaliyyətlərində COP29-un əhəmiyyətini vurğulayırlar. Bu günlər ABŞ, Böyük Britaniya, Almaniya, Belçika, Niderland, İtaliya, Macarıstan, Avstraliya, Pakistan, Nigeriya, Əlcəzair, Kamerun, Meksika, Hindistandan olan QHT-lər və ictimai fəallar Azərbaycan Milli QHT Forumuna məktub ünvanlayaraq COP29-a evsahibliyi edən ölkəmizə güclü dəstək ifadə edib, bizimlə həmrəy olduqlarını bəyan ediblər.

Müşahidələr göstərir ki, faciəli metereoloji hadisələr, ərzaq və su ehtiyatlarına təsir edən qeyri-sabit iqlim şəraiti, infeksion xəstəliklərin baş verməsinin yeni modelləri və ekosistemin dəyişməsi nəticəsində bir sıra xəstəliklərin yaranması insan sağlamlığı üçün böyük təhlükələr yaradır. Bir sözlə, biz onu aydın dərk edirik ki, dünya iqlim dəyişikliyindən daha mükəmməl qorunmalıdır. Həyatımız üçün daha vacib addımların atılması zəruridir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2024.- 7 iyun, № 119.- S.7.